# İFAÇI, PEDAQOQ, YARADICI İNSAN



*Əhsən RƏHMANLI,*
*tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

İfaçılıq sənətimizin ayaq tutub yeriməsində misilsiz xidmətləri olan sənətkarlar öz adlarını musiqi mədəniyyəti tarixinə yazıblar. Zəngin, həmişəyaşar, çoxjanrlı musiqimizə canı-dildən, sədaqətlə xidmət edən böyük sənət adamlarının izini tutub gələnlər, ənənələrə sadiq qalanlar da çox iş görmüş, öz sözünü demiş, zəngin fəaliyyətləri ilə musiqi xəzinəmizə öz töhfələrini vermişlər. Bu sırada xanəndələr, insturmental ifaçılar, bəstəkarlar çox dəyərli yaradıcılıq yolu keçmişlər. İnstrumental ifaçılıq sənətimizə 150 ilə yaxındır ki, daxil olan qarmon sənəti bu günə qədər addımladıqca daim inkişaf tapıb və layiqli nümayəndələrini yetirib. Hər bir ifaçı özünəməxsus, bənzərsiz sənəti ilə qarmonu xalqımızın ruhu ilə doğmalaşdırıb, el-oba şənliklərində, toy-büsatda, konsertlərdə səsləndirərək istər solo çalğılar, istər ansambllar, müxtəlif qruplar tərkibində gözəl, qəlbоxşayan ifaları ilə zövq yaratmış, xanəndələri ustalıqla müşayiət etmiş, bundan əlavə şux, oynaq rəqs havalarına meydan vermişlər. Azərbaycan qarmon sənəti bu gün də inkişafda, zənginləşməkdə, xalq tərəfindən sevilməkdə, öz ustadlarını və gənc ifaçıları yetirməkdədir. Belə ustad qarmonçalanlar Bakıda və Azərbaycanın hər yerində fəaliyyətdədirlər. Şəki də bütün dövrlərdə öz mahirlərini, ustadlarını yetirib. Elə isə onlardan biri haqqında söhbət açaq.

Zair Veysəl oğlu Mustafayev 1949-cu il iyunun 1-də füsünkar gözəlliyi ilə seçilən, qədim tarixə malik olan, dünya xalqlarını heyran qoyan Şəki şəhərində doğulub. Əvvəl dünyaya göz açdığı məhəllədə, boy atdıqca doğma şəhərin hər yerində gəzib dolanıb, qaçıb yürüyüb. Bu gözəl məkanın hər qarışı, gözəlliyi, tarixiliyi onun beyninə, zehninə, fikir və düşüncəsinə hopub, qəlbində nəğmələrə dönüb, dilində şirin-şirin səslənib və sonralar həyatının zəngin, ətirli musiqi çələnginə çevrilib. O, maraqlı, zəhmət dolu həyat və yaradıcı ömür yaşayıb. Elə bu oçerki oxuyan hər bir kəs üçün fikirlərimiz öz təsdiqini tapacaqdır.

Zair doğma şəhərdəki 11 saylı ümümtəhsil məktəbdə VIII sinfi bitirib və 1968-ci ildə Şəki Pedaqoji Məktəbini yüksək nailiyyətlə başa vurub. 1975-ci ildə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakültəsini bitirib.

Qeyd olunmalıdır ki, Zair uşaqlıq çağlarından istedadı ilə yaşıdlarından seçilir, qohum-qonşuların, məktəb kollektivinin nəzər-diqqətini cəlb edirdi. O, yaxşı qarmon çalırdı. Qarmon çalmağı özü öyrənmişdi. Təbii ki, bu işdə aşıb-daşan istedadı, sonsuz həvəsi, musiqiyə böyük marağı və inadkarlığı ona stimul vermişdi. Az vaxtda çox şeyi mənimsəmişdi, Şəki toylarından radiodan, qrammafon vallarından eşitdiyi, televiziyadan seyr edib dinlədiyi bütün qarmon ifaları onun üçün tədris vəsaiti, örnək, nümunə idi. Z.Mustafayev Teyyub Dəmirov (1908-1970), Məmmədağa Ağayev (1919-1982), Qızxanım Dadaşova (1925-1967), Abbas Abbasov (1924-1997), İsfəndiyar Coşqun (1929-1991), Zakir Mirzəyev, Avtandil İsrafilov, Həmid Haqverdiyev (1947-1980) və başqa qarmonçalanların ifalarından layiqincə bəhrələnmişdi. Bütün bunlardan əlavə o, Zakir və Avtandilin maqnitofon lentlərinə toplanmış ifalarına daha dərin maraq və məhəbbətlə yanaşmış, çox dinləmiş və belə sənətkarların texniki imkanlı, o dövr üçün müasir səpgilərini, yeni üslubu çox gözəl mənimsəmişdi. Azərbaycan qarmon sənətinin zənginçalarlı, ecazkar səsi, təsirli ifa forması, məxsusi texniki üslubu, tembr xüsusiyyətləri, xalq çalğı alətləri ilə uyuşması, həmahəng səslənməsi, bu alətlə muğamların bər-bəzəklərlə, melizmlə ifası ağlı kəsəndən Zairi özünə cəlb etmişdi. Mükəmməl sənət aləminə qədəm qoyandan, bu işdə özünü dərk edəndən, tanıyandan, müəyyən arxayınlıq tapan andan, Z.Mustafayev Azərbaycan qarmonuna məxsus bütün elementləri, incəlikləri, dəyərləri öz ifasına, üslubuna qataraq həqiqi sənət yoluna çıxdı.

Zairin daxilində bir sənət qığılcımı var idi, sonra alova dönərək öz işığını hər yerə yaydı, ətrafına pərəstişkarlar, sənətsevərlər topladı və musiqi aləmində öz yerini təyin elədi.

Yalnız müntəzəm ev məşqləri deyil, oxudu məktəbdə, texnikimda, mədəniyyət evində keçirilən konsertlərdə ansambl tərkibindəki çıxışı və solo ifaları onu andanana, gündən-günə inkişafa, yüksəlişə aparır və peşəkar sənətə hazırlayırdı. Şəkinin tanınan müğənni və instrumental ifaçıları, mədəniyyət işçiləri Zair haqqında səmimi fikirlər bildirir, tərifli, ürək sözləri söyləyir və onun gələcəyinə böyük ümidlər bəslədiklərini dilə gətirirdilər.

Z.Mustafayev 1966-1970-ci illərdə Şəki şəhər Mədəniyyət Evində, Pioner və Məktəblilər Evində (hazırda Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzi) qarmon dərnəyinin rəhbəri olmuşdur. O, 1975-1981-ci illərdə Şəki İpək Kombinatında mühəndis-memar işləmişdir. Bakıda təhsil alıb qayıdandan sonra, bu işdə çalışmağına baxmayaq, Şəkidə o, daha geniş, əhatəli ifaçılıq fəaliyyəti ilə məşğul olurdu. Konsertlərdə, toylarda çıxışlar necə gözəl, rəngarəng, ürəkaçan, dəyərli və insanlara sevinc bağışlayan idi. Qarmon ifaçılığı maddi, mənəvi dayaq olmaqla bərabər, həm də ona dost-tanış qazandırmış, böyük nüfuz gətirmişdi.

"Zirvə" instrumental ansamblda çalışmağı Z.Mustafayevə nəinki Şəkidə, hətta regionda, Azərbaycanın çox yerlərində ifaçılıq bacarığını, yaradıcılığını, sənət istəklərini həyata keçirmək üçün münbit şərait və imkan yaratmışdı. Təbii ki, ansambl üzvlərinin gənclərdən ibarət olması, yeni repertuar, müasir səpgi və bütünlükdə isə cavanlıq əşqi ilə yaşayıb-yaratmaq mühüm rol oynayırdı. Ümumiyyətlə, Z.Mustafayev yalnız solist kimi deyil, əsl ansambl musiqiçisi kimi yetişmişdir. Bu bir faktdır ki, ansambl, orkestr musiqiçisi kimi çalışmaq solist olmaqdan çətindir.

Zair müəllimin xatirələrindən: "1961-ci ilin yazında, bir gün anamla günorta vaxtı dayımgilə qonaq getmişdik. Dayım Ağaşirin məşhur zurnaçalan Ələfsər Şəkilinin xalası oğlu, həm də onun dəstəsində kosvuran (böyük nağaranı çalan) idi. Biz eyvana daxil olduğumuz zaman dirəkdəki radiodan qarmonda muğam ifası səslənirdi (sonralar bildim ki, həmin muğam Məmmədağa Ağayevin çaldığı "Orta Segah" imiş). Dayımla anam evdə söhbət edir, mən isə dirəyə söykənib muğamı dinləyirdim və gözlərim yaşarmışdı. Bu an dayım məni çağırdı və gözlərimin yaşını görüb soruşdu: - A bala niyə ağlayırsan?" Mən də cavab verdim ki, həm muğam xoşuma gəldi, həm də yadıma düşdü ki, istəyirəm qamonum olsun, lakin onu mənə almırlar... O, anama məzəmmətlə dilləndi:-A bacı, görürsünüz ki, uşağın həvəsi var, ona qarmon alın da..."

Zair bir gün məktəbdən evə gələndə çarpayının altında iri karton qutu görür, ona çox maraqlı gəldiyi üçün qonaqlara "xoşgəldin" deməyi unudur.Tezcə qutunu oradan çıxarıb qarmonu götürür. Həyətə keçib oturub çalır, bir şey alınmır, bir neçə saatdan sonra atasına deyir ki, istəmirəm, qarmonu aparıb qaytarın. Çünki təsadüfi, əlaqəsiz səslər onun başına düşərək, küsdürüb yormuşdu. Yəni qarmondan səs çıxarmağı bacarsa da, bu səsləri bir-biri ilə əlaqələndirib ortaya bir şey çıxara bilmirdi. Lakin ata Zairin dediyini etmir, qarmonu aparıb dükana qaytarmır. Səhəri gün məktəbdən sonra Zair yenə qarmonu qucağına alır, hey dartışdırsa da, çala bilmir. Üçüncü gün uşaq bu yarımtonsuz, bircərgəli qarmonda, istədiyi səslərə alışaraq "Sudan gələn sürməli qız" folklor mahnısını imitasiya edir. Təbii ki, sevincin həddi-hüdudu olmur və öyrəndiyi bu kiçik, sadə quruluşlu, ardıcıl səslərə nizamlanmış mahnı ona sonrakı günlərdə öyrənəcəyi xalq havaları, mahnılar üçün acar olur, həvəs oyadır, özünəinam bəxş edir və arxayınlıq yaradır. Bu anlardan sonra onun üçün xromatik "Kazan" qarmon alınır.

Zairin fikirlərindən: "1966-cı il idi. Artıq mən çoxlu mahnılar və oyun havaları öyrənmişdim, muğamlardan da azca baş çıxarırdım. İstəyirdim ki, məni geniş auditoriya dinləsin. Ona görə də anama dedim ki, məni öz xalası nəvəsi, tarzən və rəssam İsmayıl Tağıoğlunun yanına aparıb, ona tanıtsın. Belə də oldu. İsmayıl mənim çalğımı dinlədi və bəyəndi. Sonra onunla 3 ildən artıq birlikdə çalışdıq".

1968-ci ildə Şəkiyə xarici ölkədən qonaqlar gəlmişdi. Qonaqlara səhər yeməyi zamanı istirahət və zövq bəxş etmək üçün musiqi qrupu yaradılmışdı. Bu qrupa Ələfsər Şəkili rəhbərlik edirdi. Dördyol adlanan ərazidə yerləşən yeməkxanada hazır vəziyyətdə qonaqları gözləyirdik. 15-20 nəfərlik nümayəndə heyəti gəldi. Onları rayon rəhbərləri - birinci, ikinci, üçüncü katib, icraiyyə komitəsinin sədri, milis rəisi, prokuror, idarə müdirləri və b. müşayiət edirdilər. Bir-iki çıxışdan sonra sakitlik yarandıqda, mən qeyri-ixtiyari olaraq lap pıçıltıya bənzər, yavaş səslə "İnternasional" himnini çaldım. Bu zaman qonaqlar ayağa duraraq hamısı bir ağızdan himni oxumağa başladılar (bunu heç gözləmirdim). Bu an mən özümü itirməyib qarmonun var gücü ilə onları müşayiət etməyə başladım. Qonaqlar həvəslə oxuyur, rayon rəhbərləri isə başlarını aşağı salıb dayanmışdılar. Milis rəisi və bir neçə nəfərin mənə hiddətlə, acıqlı nəzərlərlə baxdıqlarının şahidi oldum və düşündüm ki, görəsən məni hansı cəza gözləyir?!. Odur ki məni tər basdı. Nə isə, himn bitən kimi qonaqlar və bizimkilər əl çalaraq əyləşdilər. Üçüncü katib İzzət Həmidov bizə yaxınlaşdı, Ələfsərlə əl verib, görüşüb hal-əhval tutdu və mənə tərəf çevrilərək:-Bir də heç vaxt özbaşına belə qələt eləmə-dedi".

1974-cü ildə Şəkidə baxış-müsabiqə keçirilirdi. Münsiflər heyətinin tərkibində görkəmli aktyor, Xalq artisti Məlik Dadaşov, Şəki rayon PK-nın II katibi Ənvər Nəzərli də var idi. Z.Mustafayev orada özünün bəstələdiyi rəqs havasını da ifa etmişdi. Melodiya çoxunun və həmçinin M.Dadaşovun da xoşuna gəlmişdi. O, Zairə melodiyanın adını "Şəki rəqsi" qoymasını tövsiyə etmişdi. Zair həmin fikri bəyənmişdi. Zairin 1999-cu ildə arayaərsəyə gələn məcmuəsində öz yerini tutan "Şəki rəqsi" elə həmin havadır.

Z.Mustafayev üzvü olduğu ansamblların tərkibində 1968, 1971, 1972 və 1978-ci ildə SSRİ məkanında keçirilən baxış-müsabiqələrdə, konsertlərdə , 1995-1996-cı illərdə Türkiyədə düzənlənən festivallarda iştirak edərək fəxri fərmanlar, diplomlar almışdır. O, 1971-1973-cü illərdə Politexnik İnstitutda tarzən, dirijor, bəstəkar Nəriman Əzimovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının qarmon çalanı kimi, tədris müəssisəsinin özündə və digər yerlərdə keçirilən tədbirlərdə, bayram konsertlərində, televiziya çıxışlarında olmuş və geniş auditoriyada tanınmışdır. Z.Mustafayev təhsil aldığı ali məktəbin ansamblı ilə Özbəkistanın paytaxtı Daşkənddə "Taş Pİ-71" festivalında, 1972-ci ildə SSRİ-nin 50 illiyinə həsr olunmuş Ümumittifaq Televiziya Festivalında uğurlu çıxışların iştirakçısı olmuşdur. Bu konsertlər o zaman mərkəzi televiziya vasitəsilə SSRİ-nin ucqarlarına qədər hər yerə yayımlanmışdı. Ali məktəbdə o, görkəmli xoreoqraf, rəqs sənətimizin nadir incisi və dərin bilicisi Əlibaba Abdullayevin (1915-1980) rəhbərlik etdiyi tələbələrdən ibarət özfəaliyyət rəqs ansambllının da qarmonçalanı idi, müntəzəm məşqlərdə olur və konsertlərdə əsl müşayiətçi kimi özünü doğruldurdu. Z.Mustafayev institutun rəqs və xalq çalğı alətləri ansambllarının tərkibində 1972-ci ildə Sovet dövlətinin kosmonaftlarını hazırlayan Bauman adına Moskva Ali Texniki Məktəbdə (MVTU) verilən möhtəşəm konsertin də iştirakçısı olmuşdur.



**Haşiyə:** "Musiqiçi, tədqiqatçı və bu oçerkin müəllifi kimi bir məsələ üzərində dayanmaq istərdim. 1970-ci ildə televiziya ilə axşam verilən bir konserti dinləyirdim. Bu, Politexnik İnstitutun ansmblının konserti idi. O dövrün tələblərinə əsasən ansambl konserti muğam dəramədilə açdı. Bu "Çahargah" dəramədi idi. Ansambl melodiyanın "Müxalif" şöbəsinə keçiddə qarmonçalan çox maraqlı, təsirli, texniki imkanlar və melodik baxımdan gözəl solo ifa etdi. Bu ifa məni tutdu, çox bəyəndim. Sən demə bu konsertə çoxları tamaşa edirmiş və tamaşaçıların hamısında maraq oyadıbmış.

*(Davamı var)*